## Qarşılıqlı əlaqələr genişlənir

İyun ayının 11-də Vergilər Nazirliyində Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) nümayəndə heyəti ilə görüş keçirilmişdir. BMK-nın tədbirdə çıxış edən nümayəndəsi İrina Niderberger görüşün keçirilməsində əsas məqsədin bu təşkilatın yaxın gələcəkdə regionda təqdim etmək istədiyi xidmətlər haqqında qarşı tərəfə məlumat vermək olduğunu bildirmişdir. O, Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə artıq bir neçə ildir müxtəlif sahələr üzrə əməkdaşlıq etdiklərini və bu əlaqələrdən məmnun olduqlarını bildirmişdir.

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov Amerikadan gəlmiş qonaqları salamlayaraq, son illər Vergilər Nazirliyi tərəfindən həyata keçirilmiş islahatlar və bu gün həmin islahatların müsbət nəticələri barədə onlara məlumat vermişdir. Sonra o, 2006-cı ildən etibarən Vergilər Nazirliyində tətbiq edilən Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) 3-cü mərhələsinin tətbiqi üzərində işlərin aparıldığını vurğulamışdır. 2003-cü ildə - Vergilər Nazirliyi yaranandan 3 il sonra inzibati ərazi bölgüsü üzrə müvafiq vergi qurumlarının ləğv olunaraq onların əvəzinə 12 Ərazi Vergilər İdarəsinin yaradıldığını bildirən nazir müavini, nəticədə, Azərbaycanın vergi sistemində işlək bir strukturun mövcud olduğunu qeyd etmişdir.

Diqqəti vergi ödəyicilərinə xidmət sahəsində görülən işlərə yönəldən S.Ələkbərov vergi ödəyicilərinin rahatlığını təmin etmək üçün 33 Vergi Ödəyicilərinə Xidmət Mərkəzinin istifadəyə verildiyini bildirmişdir. O, 2011-ci ilin iyul ayından fiziki şəxslərin, cari ilin fevral ayından isə kommersiya hüquqi şəxslərin onlayn rejimdə elektron qeydiyyatına başlandığını qonaqların nəzərinə çatdırmışdır. Nazir müavini ƏDV dələduzluğuna qarşı mübarizə sahəsində vahid ƏDV depozit hesabının yaradılması ilə bir çox problemlərin öz həllini tapdığını və ilk illərdə vahid depozit hesabının tətbiqi nəticəsində qeyri-neft sektoru üzrə ƏDV daxilolmalarının xeyli artdığını bildirmişdir.

Vergi orqanlarında şəffaflığın təmin edilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər, bu yaxınlarda Beynəlxalq Antikorrupsiya Akademiyası ilə Vergilər Nazirliyi arasında imzalanmış memorandum və növbəti ildən ölkədə elektron auditin tətbiqinə başlanılacağı barədə də qonaqlara məlumat verilmişdir. Nazir müavini, həmçinin, Vergi Məcəlləsinə dəyişikliklərin edilməsi ilə bağlı təkliflərin hazırlanaraq müvafiq qurumlara təqdim olunduğunu bildirmişdir.

Çıxışının sonunda Sahib Ələkbərov Vergilər Nazirliyinin Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıqda maraqlı olduğunu və birgə fəaliyyət sayəsində uğurlu layihələrə imza atacaqlarına ümid etdiyini vurğulamışdır.

Tədbirdə transfert qiymətlər və sadələşdirilmiş vergi ətrafında qarşılıqlı fikir mübadiləsi aparılmışdır. Görüşdə çıxış edən Beynəlxalq Maliyyə Korporasiyasının biznesin vergiyə cəlb olunması üzrə məsləhətçiləri Jan Loeprik və Coel Kuper Azərbaycanın vergi sahəsində həyata keçirdiyi islahatları yüksək qiymətləndirdiklərini və bu sahədə ölkəmizin regionun lider ölkələrindən birinə çevrildiyini bildirmişlər. Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən sadələşdirilmiş vergi üzrə bir çox ölkələrdə tədqiqatlar aparıldığı, bunun nəticəsində əksər ölkələr tərəfindən sadələşdirilmiş vergi üzrə diferensiasiyanın tətbiq edilməsinin əsas tendensiya kimi qeydə alındığı vurğulanmış, transfert qiymətqoyma üzrə beynəlxalq təcrübə sahəsində fikir mübadiləsi aparılmışdır.

Sonra Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev, vergilər nazirinin müşavirləri Asəf Əsədov və Ələkbər Məmmədov çıxış edərək müzakirə olunan məsələlərə öz münasibətlərini bildirmişlər.

Arzu İBRAHİMOVA